

**KAZIMOV FİRDOVSİ**
**CƏFƏRXAN OĞLU**

25 mart 1955-ci ildə Qubadlı rayonunun Yuxarı Mollu kəndində anadan olmuşdur. Rusiya Federasiyasının Krasnodar Politexnik İnstitutunun Texnologiya fakültəsini bitirmişdir. Sumqayıt Alüminium zavodunda fəhlə, usta, sex rəisi, Komsomol Komitəsinin katibi, Həmkarlar İttifaqı Komitəsinin sədri, sonra Azərbaycan Ticarət Nazirliyində və s. yerlərdə məsul vəzifələrdə işləmişdir. Halhazırda Azərbaycan Respublikası Dövlət Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində "İtki və tələfatların qiymətləndirilməsi" üzrə İşçi Qrupunun rəhbəri, "Yeganə Yol" qəzetinin təsisçisi, baş redaktoru və Azərbaycan Mübariz Müharibə Veteranları Birliyinin sədr müavinidir.

10-dan artıq kitabın, yüzlərlə lirik, publisistik və ictimai-siyasi məqalələrin müəllifidir. "Səndən qalan bir sevgidir", "Dil açıb dillənən könlüm", "Bir ömür yetməz", "Sənə səndən şikayətim var mənim" şeirlər kitablarının, "Hardan gəldi bu sevda" povesti, "Ölmə...ölsən, məni də götür", "Taleyimdən qorxuram", "Qədr gecəsindən üç gün sonra" romanları və "İnsanlığın keçdiyi yol" publisistik kitabı işıq üzü görmüşdür.

AYB va AJB-nin üzvü, "Qızıl qələm", "İti qələm", "Vicdanlı qələm", Nizami Gəncəvi adına "Bəşəri Sərvət" və bir çox başqa media mükafatlarına layiq görülmüşdür.

## ÜRƏKLƏ AĞILIN SÖHBƏTİ

Aggğıl: - De, niyə hökmünə səbrim yox, dözəm,
Ürək: - İstəməm əlini əlimdən üzəm.
Ağıl: - Onda bu iradlar nəyinə gərək?
Ürək: - Çünki haqsızlığa dözməyir ürək?
Ağıl: - Birisi qəlbində sevirmiş səni,
Ürək: - O ki, duymamışdı heç zaman məni.

Ağıl:- Nə olar, tutulmuş gözlərimi aç,
Ürək: - Mən sənə demişdim, şərdən uzaq qaç.
Ağıl: - Sənintək görmədim hələ mərdini,
Ürək: - Başqası bilərmi sənin qədrini?!
Ağıl: - Demirəm hər şeyi sən içinə sal,
Ürək: - Axı necə deyim gəl halallıq al.

Ağıl: - Deyirlər ki, haqq nazilər, üzülməz,
Ürək: - Adam düzəlməsə, dünya düzəlməz.
Ağıl: - Sənə nə söyləyir qəlbinin səsi?
Ürək: - Mənə yad deyildir həsrət nəğməsi.
Ağıl: - Nədir silkələyib səni tərpədən?
Ürək: - Qorxuram, əl çəkəm ülvi sevgidən.
Ağıl: - Sevgidən yoğrulub bu dəli-dolu,
Ürək: - Haqdan başlamırmı sevginin yolu?
Ağıl: - Nə qədər olacam mən sənin kölgən?
Ürək: - Bədguman oluban çıxma özündən!
Ağıl: - Sevgidir aşiqin söhbəti-sözü?
Ürək: - Bulaq qaynamasa tutular gözü.
Ağıl: - Ulduz görünməsə,çətin ay batar,
Ürək: - Atalar da deyib,axtaran tapar!
Ağıl: -Yiyəsiz tarlada qanqallar bitər.
Ürək: - El bir olsa, dağı belə tərpədər!
Ağıl: - İnan ki, arzuyla həyat yarıdır,
Ürək: - Xoşbəxtlik bu ömrün sevgi payıdır.
Ağıl: - Coxları rast gəlir qayaya-daşa,
Ürək: - Çalış bu dünyada səbrlə yaşa.
Ağıl:-Bu dəli könlümdə yalnız sən idin,
Ürək:-Əslində sən məndə özünü sevdin.
Ağıl:- Əlimi üzmədim Ulu Tanrıdan!
Ürək:-İlahi sevgidir bizi yaşadan.
Ağıl:-Nə olar, heç zaman gəl ayrılmayaq,
Ürək:-Qoymaram ki, həsrət yükün daşıyaq.
Ağıl:-Onda gəl, əzizim, qol-boyun olaq,
Ürək:-Çalışaq, həyatda bir canda qalaq.

**AY ANA**

Nə tez tükəndin, bitdin,
Dünyamdan köçüb getdin,
Məni pərişan etdin,
Ana, ana, ay ana!

Bizə verdiklərini,
Əkib, biçdiklərini,
Gördük çəkdiklərini
Ana, ana, ay ana!
Yetişdinmi yarına,
Bostanina, barına,
Ömrünün baharına,
Ana, ana, ay ana!

Burdan bir el ötürdü,
Məndən namə götürdü,
Görən sənə yetirdi?
Ana, ana, ay ana!
Qurban olum adına,
Düşürəmmi yadına,
Gəl yetiş fəryadıma,
Ana, ana, ay ana!

**SƏNDƏN SONRA**

(Dostum Əli Əmirovun adından )
Dünya gözümdə ələndi,
Kədər ömrümə bələndi,
Könlüm dil açıb dilləndi,
Səndən sonra, səndən sonra.

Güllü-çiçəkli yaz idi,
Kədərim, qəmim az idi,
Sənsiz ömrüm çox nazildi,
Səndən sonra, səndən sonra.

Dağları duman, qar alıb,
Həsrət içimdə yurd salıb,
Səbrim tükənib, daralıb,
Səndən sonra, səndən sonra

Ölüm sanki bir çapardı,
Məni yox, səni apardı,
Ahlar qəlbimi qopardı,
Səndən sonra, səndən sonra.

İlləri yola salmışam,
Tənha, sərgərdan qalmışam
Bilsən, necə qocalmışam,
Səndən sonra, səndən sonra.